**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**PİKƏ XƏLİFƏ QIZI FƏTULLAYEVA**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA MÜZİKL

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2017**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşunaslıq üzrə elmlər doktoru, professor
**Gülzar Rafiq qızı Mahmudova**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Zemfira Kəlpəliqızı Abdullayeva**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universitetinin**
**"Musiqi tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə 16_ iyun 2017-ci ildə saat 12:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ may 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**dosent:** **H.V.Məmmədova**

# İŞİN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** İncəsənət sahəsində önəmli mövqedə olan bir sıra istiqamətlər kimi teatr musiqisinin yeni mərhələlərinin öyrənilməsi də, xüsusi bir əhəmiyyətə malikdir. Belə ki, teatr musiqisinin müxtəlif dönəmlərində ərsəyə gələn yeni janr nümunələri onu daha da zənginləşdirmiş və daim önəminin saxlanılmasına səbəb olmuşdur. Və bunlardan biri də ABŞ və Avropada musiqili teatrın ən məşhur və tələb olunan janrlarından birinə çevrilən müzikldır.

Müzikl – incəsənətin sintetik janrlarından biri kimi özündə teatr, musiqi, xoreoqrafiya, parlaq səhnə effektləri, dram və opera sənətinin bir çox rəngarəng ifadə vasitələrini cəmləşdirir. Lakin müzikl teatr incəsənətinin ayrıca bir janrı kimi uzun müddət qəbul edilməyib. Buna səbəb onun janr mənsubluğu ilə bağlı olan probleminin olması idi ki, bu da tədricən öz həllini və əsasını tapır. Bu nöqteyi nəzərdən müziklin həm ABŞ-da və həmçinin, Azərbaycanda tarixi mərhələlərinin araşdırılması aktual məqamlardan biridir.

Müzikl janrı milli musiqi incəsənətinin müəyyən inkişaf mərhələsindən etibarən bəstəkarlarımızı cəlb etməyə başlamışdır. Nəticədə, bir sıra maraqlı nümunələr yaradılmışdır. Bu sırada, klassik müziklin ilk nümunəsi olan Q.Qarayevin "Çılğın Qaskoniyalı" əsərindən sonra ərsəyə gələn F.Qarayev və L.Vanşteynin "Nyu – Yorka yol və ya Miss Elli ərə gedir", A.Əzimovun "Karmen", "Romeo və Culyetta", "Yay gecəsinin yuxusu", L.Vanşteynin "Səhranın ağ günəşi", A.Yusifovanın "Cəmilənin albomu", S.Fərəcovun "Tədbirə qarşı tədbir" və s. adları qeyd edilə bilər. Lakin Azərbaycan bəstəkarlarının bu sahədə olan əsaslı uğurlarına baxmayaraq, bu mövzunun araşdırılması ilə bağlı olan problemlər milli musiqişünaslıqda işlənilməmişdir. Bu baxımdan, müzikl janrının yaranması, formalaşması suallarının işlənmə dairəsi Azərbaycanın musiqili teatrında gedən inkişafı zənginləşdirə biləcək əsaslı və aktual problemlərdəndir.

Qeyd etmək lazımdır ki, müzikl bir janr kimi ABŞ-da formalaşma dönəmində vodevil, musiqili komediya, operetta kimi musiqili səhnə üslublarından qaynaqlanmışdır. Bu baxımdan, onlarla sıx bağlı olan bir sıra musiqili səhnə janrlarının tarixi mərhələlərinə, hansı istiqamətdə inkişafına və bu prosesdə nə kimi dəyişikliklərə uğradıqlarına nəzər yetirmək vacibdir. Ümumilikdə, müziklin qaynaqlarının araşdırılması üçün ABŞ musiqisində baş verən formalaşma prosesi Azərbaycan musiqisi üçün də keçərlidir.

Azərbaycanın bir əsrdən artıq tarixə məxsus olan teatr musiqisinin başlanğıc nöqtəsini Ü.Hacıbəylinin 1907-ci ildə "Leyli və Məcnun" muğam

operası təşkil edir. Bunun ardınca "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi parlaq əsərlərin yaranması ilə musiqili komediya və operetta janrlarının ilk nümunələri ərsəyə gəlmişdir. Ü.Hacıbəyli tərəfindən açılan bu yolda daha sonra bir sıra bəstəkarlarımız parlaq nümunələr yaradaraq onun ənənələrini və eyni zamanda, janrı daha da inkişaf etdirmişlər. Bu baxımdan, Azərbaycanda müzikl janrının qaynaqlarının araşdırılmasında musiqili komediya və operettalara müraciət edərək onların inkişaf tarixini, spesifik xüsusiyyətlərini və digər bəstəkarlarımızın yaradıcılığında nə cür təzahür tapmasını aydınlaşdırmaq vacibdir.

Mübaliğəsiz demək olar ki, musiqili teatrın genişlənməsi, gündən – günə dolğunlaşması və yeni janrların ortaya çıxması bu mövzunun işiqlandırılmasında dissertasiya işini tam aktual edir və ümumilikdə, Azərbaycan teatr musiqisi üçün yeni olan müzikl janrının tarixi, inkişafı, üslub özəllikləri bəstəkar nümunələrində indiyədək tədqiq olunmamış bir sahə olduğu üçün, bütün bunlar hazırki məsələnin araşdırılması zəruriyyətini önə çəkərək, müraciət etdiyimiz mövzunun aktuallığını əsaslandırmağa imkan verir.

Eyni zamanda, tədqiqat nəticəsində araşdırılan parlaq müzikllarda bu əsərlərin Azərbaycanda musiqili teatr sahəsini daha da zənginləşdirdiyi məqamı aşkar edilmişdir. Beləcə, dissertasiya işi onların incəsənətimizin digər sahələri kimi beynəlxalq miqyasda tanıdılması və təbliği problemini də tədqiqatın daha bir aktual mövzusu kimi ortaya qoymuş olur.

**Dissertasiyanın işlənmə dərəcəsi.** Musiqi tarixində müzikl janrı ilə bağlı ABŞ, Avropa və Rus nəzəriyyəçiləri və teatr xadimləri tərəfindən ətraflı şəkildə araşdırılma və elmi işlər mövcuddur. Bu sırada, A.Laufe[1], St.Green[2], E.Kampus[3], V.Konen[4], S.Buşuyeva[5], T.Kudinova[6], V.Vorobyov[7], İ.Şilova[8], A.Saxarova[9], Y.Şerlinq[10] misal göstərilə bilər.

---

[1]A.Laufe. Broadways Greatest Musical. New – York, 1969

[2] St.Green. The World of Musical Comedy. New-York, 1968

[3] Кампус Э. О мюзикле. - Ленинград, Музыка, 1983

[4] Конен В. Пути Американской музыки. - М, 1977

[5] Бушуева С. Искусство и массы в современном буржуазном обществе. М, 1979

[6] Кудинова Т.Л. От водевиля до мюзикла. М., Советский Композитор, 1982

[7] Воробьев В. Как скомпромитировали жанр.// «Театр». 1975, № 9, с. 27-30.

[8] Шилова И. Заметки о мюзикле в зарубежном кино. Музыкальный современник. М.,1983. вып.4

[9] Сахарова А. Эндрю Ллойд Уэббер: Британский «Король» мюзикла. // «Музыкальный театр», 2007, с. 22-28

Lakin Azərbaycanda müzikl janrının hər hansı bir aspekti ilə bağlı olan tədqiqat və ya elmi iş yazılmamışdır. Yalnız 1985-ci ildə dəyərli musiqişunas - alim, professor A.Tağızadənin rəhbərliyində L.Quliyeva tərəfindən "Неистовый Гасконец" Кара Караева", 2013 – cü ildə isə BMA-nın "Musiqi tarixi" kafedrasının dosenti R.Səfərəlibəyovanın rəhbərliyində V.Abdulla tərəfindən "Q.Qarayev yaradıcılığında romantik dünyavi dərketmənin təzahürü ("Çılğın Qaskonlu" müzikli örnəyində)" adlı bakalavr işləri yazılmışdır. Burada Q.Qarayevin əsərinin müəyyən məqamları təhlil edilmiş, lakin əsər müzikl janrı kontekstində, geniş aspektdən araşdırılmamışdır.

Qeyd etmək lazımdır ki, müzikl Azərbaycan milli musiqili teatrında önəmli mövqe tutan musiqili komediya və operetta janrları ilə sıx bağlıdır. Məhz teatr musiqisi, onun müxtəlif növləri və inkişaf mərhələləri ilə bağlı bir sıra tədqiqatlar müzikl janrının araşdırılmasında əsas mənbələrdən biri kimi çıxış edir. Burada müxtəlif bəstəkarların musiqili – səhnə əsərləri, musiqili komediyaları və operettaları haqqında E.Abasova[11], L.Karaqiçeva[12], Z.Bakıxanova[13], R.Zöhrabov[14], X.Məlikov[15], Z.Abdullayeva[16], R.Süleymanova[17], G.Mahmudova[18] və b. tədqiqatlarını xatırlamaq olar.

Milli musiqişünaslıqda Azərbaycan teatr musiqisinə dair ayrı- ayrı faktların öyrənilməsi baxımından isə A.Sarabskinin[19], C.H.Cəfərovun[20],

---

[10] Шерлинг Ю. Новое средство общения! // « Театр», 1975, № 8, с.66-69

[11] Абасова Э. Оперы и музыкальные комедии Уз. Гаджибекова. Б., 1961

[12] Карагичева Л, Бретаницкая А. «Неистовый гасконец» Кара Караева. Музыкальный современник. М.,1983. вып.4

[13] Бакиханова З. Тофик Кулиев. Баку 1979

[14] Zöhrabov R. Rauf Hacıyev. B., 1993

[15] Меликов Х. «Аршын мал алан» Узеира Гаджибекова. Баку, 1955; Особенности стиля и драматургия музыкальных комедий Узеира Гаджибекова. Баку, 1963

[16] Abdullayeva Z. Ecazkar sənətkar (T.Quliyev). Bakı, 2007.

[17] Süleymanova R. Dünya teatr tarixində musiqinin rolu və bədii funksiyaları. // "Musiqi dünyası", 2011, № 1/46, s. 74-76.

[18] Mahmudova G. Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasında ostinatlıq prinsipi. //"Musiqi dünyası", 2005, № 3-4/25, s. 144-150.

[19] Сарабский А.Г. Возникновение и развитие Азербайджанского музыкального театра (до 1917 г.). Баку, 1968.

[20] Cəfərov C. Azərbaycan teatrı. (1873-1973)- Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1974; Azərbaycan dram teatrı. (1873-1941)- Bakı, Azərnəşr, 1959

N.Kərimovanın[21], M.Əlizadənin[22], M.Allahverdiyevin[23], R.Məmmədovanın[24], İ.Rəhimlinin[25], R.Süleymanovanın[26] əsərləri olduqca dəyərlidir.

Bütün bu tədqiqatların əhəmiyyətinə baxmayaraq, Azərbaycan bəstəkarlarının yaradıcılığında müzikl janrı indiyə qədər təhlil edilməmiş, onun tarixi inkişaf mərhələləri araşdırılmamışdır. Bu baxımdan, hazırki dissertasiya işində Azərbaycan bəstəkarlarının yaradıcılığında müzikl janrının nümunələrinə geniş yer verilmiş, bir sıra bəstəkar və musiqi xadimlərimizin çap olunmuş notlarından, orijinal əlyazmalarından və lent yazılarından (CD) da istifadə edilmişdir. Həmçinin, dissertantın bir neçə il ərzində apardığı araşdırmada müəlliflərlə olan danışıqları, tamaşaları izləməsi prosesi də əsərlərin təhlil edilməsində önəmli mərhələlərdən birini təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, tədqiqat işində Azərbaycan milli musiqişunaslığında ilk dəfə olaraq müzikl bir janr kimi işıqlandırılmış və Azərbaycan bəstəkarlarının yaradıcılığında müəyyən parlaq nümunələri təhlil edilmişdir. Bundan başqa, bir sıra önəmli xüsusiyyətlər sistemləşdirilmişdir:

- Azərbaycanda milli müzikl janrının tarixi mənbələri və inkişaf mərhələləri;
- Azərbaycanda ilk milli müzikl nümunələrinin təhlili;
- Azərbaycan müzikllarının üslub özəllikləri;
- ABŞ-da müziklin yaranma tarixi, mənbələri;
- ABŞ-da müziklin inkişaf tarixi.
- müzikl janrının musiqili komediya və operetta ilə oxşar və fərqli üslub özəllikləri;

---

[21] Kərimova N.S. Azərbaycan teatr musiqisinin tarixi. Bakı, APİ, 1986; “История театральной музыки Азербайджана в XX веке”. B., 2008

[22] Əlizadə M.Ə. Teatrımızın inkişaf yolu// “Ədəbiyyat və incəsənət”. – 1974, 26 yanvar. – s. 10-11. №4 (1148)

[23] Allahverdiyev M.Q. Müasir teatrda ənənə və novatorluq məsələləri. – Bakı, Azərnəşr, 1974; Azərbaycan teatrı bu gün. – Bakı, Maarif, 1984

[24] Məmmədova R. Azərbaycan musiqili teatrı tarixindən səhifələr. Bakı, Elm, 2006

[25] Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı . (1873 - 1936). I cild. – Bakı, Təhsil, 2013; Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı . (1937 - 1969). II cild. – Bakı, Təhsil, 2013; Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı . (1970 - 2012). III cild. - Bakı , Təhsil, 2013; Azərbaycan Dövlət Musiqili Teatrı . (1910 - 2012). - Bakı, Aspoliqraf, 2013

[26] Süleymanova R. Azərbaycan bəstəkarlarının teatr musiqisi. (1970-2000). Bakı, Qafqaz LTD, 2011

Beləliklə, təqdim edilən dissertasiyada ilk dəfə olaraq Azərbaycanda milli müziklin tarixi, mənbələri, inkişaf mərhələləri, parlaq nümunələri tədqiq edilmişdir. Həmçinin, müziklin üslub özəllikləri, onun digər musiqili səhnə janrlarından fərqi araşdırılmış, Azərbaycan bəstəkarlarının müziklləri təhlil edilərək tədqiqata daxil edilmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycan bəstəkarlarının yaradıcılığında olan nümunələrin ətraflı təhlili əsasında müziklin Azərbaycan teatr musiqisində tarixi əhəmiyyətini ortaya qoymaqdır. Bu məqsədlərə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həlli nəzərdə tutulub:

- müzikl janrının ABŞ-da yaranma və inkişaf tarixini araşdırmaq;
- müzikl janrının Azərbaycanda yaranma və inkişaf mərhələlərini səciyyələndirmək;
- müzikli musiqili komediya və operettalardan fərqləndirən əsas cizgiləri müəyyən etmək;
- Azərbaycanda müziklin ilk cizgilərinin musiqili komediya və operettalarda meydana gəlməsini sübut etmək;
- Azərbaycan bəstəkarlarının müzikllarını ətraflı təhlil etmək;
- Milli müzikl janrının əsas üslub özəlliklərini dəqiqləşdirmək;

**Tədqiqatın metodu və metodologiyası.** Dissertasiya üzərində iş zamanı tarixi metod, üslub təkamülü, nəzəri, müqayisəli və konstruktiv təhlil metodundan istifadə edilmişdir. Dissertasiya işində Azərbaycan və xarici ölkə musiqişünaslarının tədqiqatlarındaki elmi-nəzəri konsepsiyalar tədqiqatın metodoloji bazasını təşkil edir və ilk fəsil ABŞ, Avropa və Rus, ikinci fəsil isə Azərbaycan tədqiqatçılarının elmi müddəalarından qaynaqlanır. Bu baxımdan, dissertasiyanın metodoloji bazası iki qismə ayrılır.

St.Grinin, A.Laufenin, V.Konenin, E.Kampusun, T.Kudinovanın, İ.Şilovanın, V.Vorobyovun, L.Mixeyeva - A.Oreliviç, S.Buşuyevanın elmi əsərlərindən olan müddəalar birinci qismə aiddir.

A.Q.Sarabskinin, C.H.Cəfərovun, N.Kərimovanın, İ.Rəhimlinin musiqili teatrla bağlı yazmış olduqları elmi əsərlərlə yanaşı, E.Abasovanın, Z.Bakıxanovanın, A.Bretanitskaya, L.Karaqiçevanın və digər Azərbaycan musiqişunaslarının fundamental əsərləri ikinci qismə aiddir.

**Tədqiqatın predmetini** Azərbaycan bəstəkar nümunələrində əsərlərin milli müzikl janrına məxsusluğunu müəyyən edən üslub özəlliliklərinin araşdırılması təşkil edir.

**Tədqiqatın obyektini** Azərbaycan bəstəkarlarının – Q.Qarayev, T.Quliyev, R.Hacıyev, A.Yusifova, A.Əzimov, S.Fərəcov, V.Camalzadə,

M.Quliyev yaradıcılıqlarında olan müzikl janrına aid nümunələr təşkil edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəa və nəticələrindən "Musiqi tarixi", "Musiqili teatr tarixi və dramaturgiyası" və eləcə də, mədəniyyət və incəsənətin başqa sahələrində elmi mənbə kimi istifadə edilə bilər.

Dissertasiyanın əsas müddəalarından musiqi yönümlü ali təhsil ocaqları üçün (Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) nəzərdə tutulmuş dərs vəsaitləri və mühazirələrdə istifadə olunması məqsədə uyğundur.

Ümumilikdə dissertasiyanın elmi-nəzəri və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, bu tədqiqat işi Azərbaycan musiqi mədəniyyətində yeni janrın - müziklin öyrənilməsinə geniş yol açır.

**Tədqiqatın faktiki materialı.** Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası və M.F.Axundov adına Milli Kitabxanadan əldə edilən Azərbaycan bəstəkarlarının dərc edilmiş klavir və əlyazma şəklində olan not nümunələri və kitablar, CD, DVD yazıları, T.Quliyevin "Qızılaxtaranlar", "Sənin bircə sözün", "Günaydın, Ella", R.Hacıyevin "Romeo mənim qonşumdur", "Gülüşünü gizlətmə", "Ana, mən evlənirəm", "Kuba mənim məhəbbətim", "Dördüncü fəqərə", "Yolayrıcı", Q.Qarayevin "Çılğın Qaskoniyalı", A.Əzimovun "Romeo və Culyetta", "Cücələr", A.Yusifovanın "Cəmilənin albomu"[27], S.Fərəcovun "Tədbirə qarşı tədbir", V.Camalzadənin "Onun ürəyi", M.Quliyevin "Leyli və Məcnun" əsərləri dissertasiyanın tədqiqat materialını təşkil etmişdir.

**İşin aprobasiyası.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında müzakirə olunmuşdur. Tədqiqatın nəticələri bir sıra elmi məqalələrdə, gənc doktorant və alimlərin Respublika konfranslarında və beynəlxalq elmi konfranslarda öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, iki fəsil, səkkiz yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, saytoqrafiya və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, elmi işlənmə dərəcəsi, elmi yeniliyi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, praktiki əhəmiyyəti, materialı, aprobasiyası və strukturu müəyyənləşdirilir.

---

[27]T.Quliyevin eyni adlı məcmuəsi əsasında

**I Fəsil - "Müzikl janrının tarixi (mənbələri, inkişafı, üslub xüsusiyyətləri)"** - dörd yarımfəsildən ibarətdir.**1.1. "Müzilklin ilkin qaynaqlanma mənbələri"** adlanır. Müzikl bir janr kimi ABŞ-da yaranmış, inkişaf etmiş və öz əsasını tapmışdır. Burada, ilk olaraq, ABŞ incəsənətinin Avropa mədəniyyətindən qaynaqlandığının məlum tarixi bir məqam olduğu qeyd edilir. Lakin Avropa teatr sənəti demokratizm və humanizm ideallarını, bir sözlə realizmi irəli çəkdiyi halda, ABŞ-da o, sırf kommersiya və gəlir mənbəyini güdən, əsas məqsədi tamaşaçıları əyləndirmək olan bir sistemə çevrilmişdir.

Bu bölümdə müziklin qeyd edilən proseslər fonunda yaranma tarixinin cərəyan etməsi ilə yanaşı, bir sıra teatr janrlarından da qaynaqlanmasına ətraflı şəkildə baxılır. Janrın əsas mənbələri sırasında tədqiqatçılar balladalı opera, menestrel teatrı, ekstravaqansa, burlesk, vodevil, revyu, operetta, musiqili komediyanı göstərirlər. Və müzikl onların hər birindən ayrı - ayrı cəhətləri əxz etmişdir [28]. Lakin müzikl üçün janr baxımından əsas mənbə sözsüz ki, operetta və musiqili komediyadır.

**1.2. "Müzikl janrının 1920-70-ci illərdə inkişaf tarixi"** adlanan bölümündə müziklin ABŞ-da ilk yaranma tarixi nəzərdən keçirilib. Burada XX əsrin əvvəlində ABŞ səhnələrində qoyulan və ilk müziklin ərsəyə gəlmə prosesində önəm kəsb edən müxtəlif əsərlərə nəzər salınıb. Qeyd etmək lazımdır ki, bu dövrün tamaşaları əsasən insanları cəlb etmək və daha çox gəlir qazanmaq məqsədi güddüyü üçün, başlıca olaraq səthi məzmunlu, əyləncəvi və şou xarakterli idi. Lakin 30-cu illərdən etibarən, müxtəlif tipli səhnə janrları daha da şəffaflaşmış və 50-ci illərdə daha rəvan, mükəmməl teatr formalarına çevrilməyə başlamışlar.Lakin 1943-cü ildə O.Xammerstayn və R.Rocers tərəfindən yaradılan "Oklaxoma"nın "musiqili komediya" əvəzinə "musiqili pyes" olaraq təqdim edilməsi müziklin tarixinin məhz bu nümunədən başlanması məqamı ilə öz həllini tapır.

Beləliklə, 40-cı illər müziklin ilk inkişaf mərhələsi və ABŞ-da operettanı əvəz etdiyi bir dövr oldu. Müziklin mövzu dairəsinin genişləndirilməsi ilə növbəti mərhələ başlandı. Belə ki, L.Bernstaynın "Orada, şəhərdə", B.Leynanın "Faynienin göy qurşağı", K.Porterin "Ket, məni öp", K.Vaylın "Küçə səhnələri" və s. nümunələri ərsəyə gəldi. 50-ci illərdə yaranan parlaq nümunələr sırasında isə L.Bernstaynın "Vestsayd əhvalatı", F.Lounun "Mənim gözəl xanımım", R.Rocersin "Musiqinin səsləri", L.Bartın "Oliver", C.Bokun "Skripkaçı damda", C.Germanın "Salam, Dolli", M.Linin "La-

[28] Кампус Э. О мюзикле. - Ленинград, Музыка, 1983; Кудинова Т.Л. От водевиля до мюзикла. М., Советский Композитор, 1982

mançdan olan adam" və s. misal göstərmək olar. Adları çəkilən 50-ci illərin nümunələri janra uğur gətirən "Brodvey müzikllları"nı təcəssüm etdirir.

**1.3. "Müzikl janrının 1970-2000-ci illərdə inkişaf tarixi"** isə bu janr üçün yeni inkişaf mərhələsi olmuşdur. Belə ki, XX əsrin 60-cı illərindən ABŞ musiqisində yeni musiqi yönümləri yaranır və burada xüsusən, rokun geniş vüsət alması və rok – operanın yaranması diqqəti cəlb edir. Belə ki, "rok-opera öz kökləri ilə sırf müzikla əsaslanan bir janrdır. İlk rok – opera isə Q.Makdermotun "Saçlar"ı (1967) hesab edilir"[29] ki, bu əsər müzikl və rok elementlərinin uzlaşması nəticəsində yaranmışdır.

Bu bölümdə, rok-müzikldа yüksək bədii-səviyyəli nümunələr ərsəyə gətirən britaniyalı bəstəkar - Endryu Lloyd Uebberin yaradıcılığı öz əksini tapıb. Belə ki, 1971-ci ildə "İsa Məsih superulduz" müziklinin ərsəyə gəlməsi ilə E.L.Uebber əsri başlayır və bu da müzikl üçün yeni dirçəliş mərhələsinə çevrilir. Bəstəkarın 1960-80-ci illər ərzində yazılan müzikllarına "Yusif və onun sehrli, rəngarəng yuxular plaşı", "Pişiklər", "Operanın kabusu", "Ulduz ekspresi" və s. aiddir. Bu əsərlər dünya musiqi mədəniyyəti tarixində müzikl janrının ən parlaq nümunələrini və növbəti inkişaf mərhələsinin zirvəsini təcəssüm etdirməkdədir.Eyni zamanda, bu dönəmdə fransız bəstəkarlarının çox parlaq müzikl nümunələri də janr üçün növbəti inkişaf mərhələsinin başlanğıcı idi. 1980-90-cı illərdə ərsəyə gələn belə müzikllar sırasında K.M.Şönberqin "Rəddedilmişlər", R.Koççantenin "Notr-dam" əsərlərini xüsusilə qeyd etmək lazımdır. Həmçinin, 60-cı illərdə ərsəyə gələn, lakin 80-cı illərdə ekranlaşdırıldıqdan sonra tanınmağa başlanan daha iki fransız nümunəsi müziklin tarixində ən önəmli əsərlərdən hesab edilməkdədirlər. Bu, M.Leqranın "Şerbur çətirləri", "Roşforlu qızlar" adlı parlaq nümunələridir.

Birinci fəslin son bölümü **1.4."Müziklin üslub xüsusiyyətləri"**ni əks etdirir. Burada ilk olaraq, janrın üslub xüsusiyyətləri araşdırılarkən operetta, musiqili komediya ilə eyniləşdirilməsi probleminə toxunulur. Halbuki, tarixi mərhələlərdən də göründüyü kimi, operetta və musiqili komediya bu janr üçün başlıca qaynaq mövqeyini daşımış və müzikl onların zəminində formalaşmışdır.

Bu bölmədə janra xas olan əsas üslub xüsusiyyətlərinə müziklin parlaq nümunələri timsalında nəzər yetirilib. Bu sırada dramaturji əsas yəni, əsər üçün seçilən "əbədi məzmun"a olan müasir yanaşma, insan cəmiyyətinin ən aşağı təbəqəsində mövcud olan obrazların ön plana çəkilməsi,

---

[29]Музыкальный энциклопедический словарь. Москва, «Советская энциклопедия», 1990

montaj prinsipini xatırladan[30] parlaq, təsiredici səhnələr, əsərə ən effektli və yadda qalan leytmotiv və ya reministensiya xarakterli musiqi nömrələrinin seçilməsi, həmçinin əsərin musiqi dilinin seçimində etnik koloritin (folklor) ön plana qoyulması, əsərin dramaturji inkişafı ilə tam vəhdət təşkil edən xoreoqrafik səhnələr və s. bu kimi janrın özəlliyini əks etdirən məqamlara ətraflı şəkildə baxılıb.

**Dissertasiyanın "Azərbaycanda müzikl janrının təşəkkülü və inkişafı"** adlı ikinci fəsli dörd yarımfəsildən ibarətdir. **2.1. "Musiqili komediya teatrının yaranması və inkişafı"** – adlı ilk bölümdə Azərbaycanda musiqili komediya teatrının inkişafına ümumiləşdirilmiş şəkildə nəzər salınmışdır. Belə ki, ABŞ-da müzikl janrının çiçəklənmə dövrünə təsadüf edən XX əsrin əvvəlləri Azərbaycanda musiqili teatr üçün formalaşma dövrü idi. Qeyd etmək lazımdır ki, tədqiqata əsasən bir-biri ilə sıx bağlı olan – musiqili komediya teatrı ilə operetta və musiqili komediya janrlarının inkişaf mərhələlərinin nəzərdən keçirilməsi müzikl janrının başlanqıc nöqtəsini aşkarlanmasına rəvac verdi. Bu baxımdan, Azərbaycanda musiqili teatrın inkişaf mərhələlərində bir neçə məqam xüsusilə diqqəti cəlb etdi. Belə ki, XX əsrin 10-30-cu illərində Azərbaycanın teatr musiqisi, musiqili komediya və operetta janrı formalaşmaya başlayır. Və bu, Ü.Hacıbəylinin ərsəyə gətirdiyi "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911) musiqili komediyaları və "Arşın mal alan" (1913) operettası ilə bağlıdır. Ü.Hacıbəyli tərəfindən bu janrlarda əsası qoyulan milli lad quruluşu və çalarları, xalq mahnı ənənələri, daha sonra Z.Hacıbəyov, M.Maqomayev, M.Kazımovski kimi bəstəkarların yaradıcılığında da davam etdirilir. Lakin bu dönəmi məhz Ü.Hacıbəyli yaradıcılığında vüsət alan əsərlər ilə xarakterizə etmək mümkündür. Belə ki, milli musiqili komediyanın banisi olan Ü.Hacıbəylinin nümunələri Azərbaycanda bu janrın formalaşmasının bünövrəsini təşkil etmişdir və illər ötməsinə baxmayaraq, yaşamaqda və səhnələşdirilməkdədir. Bu məqamda, 2013-cü ildə "Arşın mal alan" operettasının səhnəyə qoyulmasının 100 illiyi münasibəti ilə ABŞ-ın Los Anceles şəhərində daha müasirləşdirilmiş, müzikla yaxın tərzdə, uğurla səhnələşdirilməsi tarixi məqamı da xüsusilə vurğulanmalıdır.

XX əsrin 30-50-ci illərindən isə Ü.Hacıbəylinin musiqili teatr ənənələri yeni nəsil bəstəkarlarla davam etdirilmişdir. Bu sırada, S.Rüstəmov, S.Hacıbəyli, T.Quliyev, F.Əmirov, S.Ələsgərov, 50-60-ci illərdə isə Z.Bağırov, R.Hacıyev, A.Rzayev, H.Xanməmmədov, Ə.Abbasov, Ş.Axundova,

[30] Müziklda belə səhnələr divertisment, intermetso, salınma nömrələrdə öz əksini tapır.

A.Məlikov və s. bəstəkarların fəaliyyəti qeyd edilə bilər. Bu mərhələdə daha çox musiqili komediya və operettalar ərsəyə gəlir ki, bu da professional kadrların formalaşması və yeni bəstəkarların janra marağı ilə bağlı idi. Həmçinin, klassik məzmunlu nümunələrlə yanaşı, müasir və məişət tipli, fərqli xalqların koloritini əks etdirən musiqili komediyalar (R.Hacıyev "Kuba məhəbbətim mənim"), caz intonasiyaları ilə seçilən operetta – revyu (T.Quliyev "Sənin bircə sözün") kimi nümunələrin ərsəyə gəlməsi ilə seçilir.

XX əsrin 70-80-cı illərində musiqili komediya teatrında baş verən dəyişikliklər isə bir sıra məqamlarla özünü ifadə edir. Bu zaman, V.Adıgözəlov, C.Cahangirov, O.Kazımov, E.Sabitoğlu və s. yeni bəstəkarlar musiqili komediya və operetta janrına müraciət edir. Lakin bu dönəmdə daha çox diqqəti cəlb edən xüsusiyyət bu janrlarda yaranan nümunələrdə müziklin cizgilərinin tədricən formalaşmasıdır. Bu məqam T.Quliyev və R.Hacıyevin yaradıcılıqlarında xüsusilə önəm kəsb edir. Məhz bu bəstəkarların əsərlərində transformasiyanı, milli operetta janrında qəbul edilmiş ənənələrin[31] yeni bir istiqamətdə, daha da zənginləşməsi prosesini görmək mümkündür. Musiqili komediya və operetta janrının bu fonda inkişafı mərhələsində isə ilk müzikl nümunəsi ərsəyə gəlir ki, bu da 1973-cü ildə Q.Qarayevin fəaliyyəti ilə "Çılğın Qaskoniyalı" əsərində öz əksini tapmış olur.

Məzmun baxımından daha müasir musiqili komediya və operettaların yaranması isə 1990-2010-cı illərə təsadüf edir. Bu sırada, A.Əzimov ("Lotoreya"), R.Şəfəq ("Bir saatlıq xəlifəlik"), O.Kazımov ("Dəli Dünya"), C.Zülfüqarov ("Dəcəl çəpişlər"), R.Mirişli ("Amerikalı kürəkən"), F.Sücəddinov ("Mən dəyərəm min cavana"), S.Fərəcov ("Səhnədə məhəbbət", "Şəhərdə manyak var", "Bankir adaxlı"), C.Quliyev ("Məhəbbət oyunu", "Yeddi məhbusə"), R.Mustafayev ("Məsmə xanım dayımdır"), O.Rəcəbov ("Əlin cibində olsun") və s. misal göstərilə bilər. Qeyd etmək lazımdır ki, uşaqlar üçün ilk operettaların yaranması da məhz bu dövrə aiddir (C.Zülfüqarov "Şəngülüm, Şüngülüm, Məngülüm", R.Şəfəq "Tülkü Həccə gedir" və s.).

Müzikl janrında daha çox nümunələrin bəstələnməsi isə XX əsrin 80-90-cı illərindən etibarən olan zamanda diqqəti cəlb edir. Bu sırada, A.Əzimov ("Cücələr", "Karmen", "Romeo və Culyetta", "Yay gecəsinin yuxusu"), C.Zülfüqarov ("Göy saqqal", "Keçəlin toyu", "Damdabaca",

[31] Burada Ü.Hacıbəylinin musiqili komediya və operetta janrında açdığı yol, milli musiqi və Avropa ənənələrinin sintezi nəzərdə tutulur.

"Maymaq"), A.Yusifova ("Cəmilənin albomu") [32], N.Məmmədov ("Qurbanəlibəy"), R.Şəfəq ("Qiymətlərin sərgüzəşti", "Ağ div, Qara div", "Yağış göbələyinin macəraları", "Sehirli güzgü"), S.Fərəcov ("Tədbirə qarşı tədbir"), E.Mansurov ("Elbrus evlənir"), V.Camalzadə ("Onun ürəyi") və s. misal göstərmək olar.

Bu bölümdə Azərbaycan musiqili komediya teatrında Qərb müzikllarının ilk səsləndərilməsinədə toxunulmuş və 1980-ci illərdən etibarən müzikllərın musiqili komediya teatrında oynanılmasına təsadüf edilmişdir. Bu sırada, F.Lounun "Mənim gözəl xanımım", L.Mitçevin "Lamançdan olan adam" qeyd edilə bilər.

2001-ci ildə isə Opera studiyası zalında "Brodvey Bakıda" başlığı altında dinləyicələrə maraqlı bir konsert proqramı təqdim olunmuşdur. Konsertdə "Vestsayd əhvalatı" müziklindən məşhur olan fraqmentlər ("Mariya", Blyuz, Mambo və s.) səsləndirilmişdir.

Dissertasiyanın bu bölümü **2.2. "T.Quliyev və R.Hacıyevin musiqili komediya və operettalarında müziklin ilk cizgiləri"** – adlanır. Məlumdur ki, tarixdə baş verən hadisələr və dövrün ictimai-siyasi prosesləri daim incəsənətin bir sıra sahələrində öz əksini tapır və onu güzgü kimi əks etdirir. Musiqili komediya teatrının tamaşaları da baş verən proseslər, ictimai-siyasi hadisələr, dövrün tələblərinə, tamaşaçıların maraq dairəsinə uyğun olaraq dəyişilmiş, inkişaf etmiş və daha da müasirləşmişdir. Nəticədə, ABŞ-da olduğu kimi, Azərbaycanda da, tədricən məhz bu məqamlar müzikl janrının yaranmasına gətirib çıxarmışdır. Beləcə, Azərbaycanda musiqili komediya teatrında və operetta janrında reallaşan tərəqqi müziklin yaranması üçün münbit şəraitə səbəb olmuşdur.

Bu məqam ilk dəfə olaraq, məhz T.Quliyev və R.Hacıyevin yaradıcılığında öz əksini tapmışdır. Belə ki, 70-ci illərdə hər iki bəstəkarın ərsəyə gətirdikləri bir sıra nümunələrdə musiqili komediya janrına olan fərqli yanaşma diqqəti cəlb edir. Buna misal olaraq, R.Hacıyevin "Dördüncü fəqərə" (1971) və T.Quliyevin "Günaydın, Ella" (1973) əsərlərini göstərmək olar.

Dissertasiyanın bu bölümündə edilən T.Quliyev və R.Hacıyev operettalarının təhlili, bəstəkarların üslub baxımından bir - birinə yaxın olan musiqili komediya və operettalarının müəyyən edilməsi prosesində hər iki bəstəkarın yaradıcılıqlarında ilk dəfə olaraq ənənəvi janr çərçivəsindən kənarlaşmanı görməyə imkan vermişdir. Və məhz "Günaydın, Ella" və "Dördüncü fəqərə" adlı nümunələrin ətraflı təhlili nəticəsində bəstəkarların müzikl janrına

[32]T.Quliyevin eyni adlı məcmuəsinə əsasən yazılıb.

yaxınlaşmaları aydın şəkildə diqqəti cəlb etmişdir. Belə ki, əsərlərin fərqli sujet xətti, onlarla həmahəng olan parlaq xoreoqrafik səhnələr, estrada və caz üslubundan geniş istifadə, rəngarəng orkestrləşdirmə, birbaşa inkişaf, dinamika və tamamlanmış, bitkin nömrələrdən ibarət səhnə quruluşu bu nümunələri digər operettalardan əsaslı surətdə fərqləndirir. Xüsusən də, hər iki bəstəkar tərəfindən ilk dəfə olaraq müraciət edilən Qərb yönümlü sujet xətti o zaman Azərbaycanda operetta janrında təsadüf edilməyən məzmuna ilk müraciətin göstəricisidir. Qeyd edilən xüsusiyyətlər T.Quliyev və R.Hacıyev yaradıcılığından etibarən müzikl janrının cizgilərinin yaranması məqamının ortaya qoyulmasına əsaslı şəkildə imkan vermişdir.

Lakin bu bölümdə eyni zamanda, 60-cı illərdən başlayaraq, T.Quliyevin musiqili komediyalarında müzikl cizgilərinin mövcudluğu ilə bağlı xüsusiyyətlərin olması faktı da öz əksini tapıb. Belə ki, bu məqam öz zamanında bir sıra mütəxəssislərin də diqqətini cəlb etmişdir. Və ümumilikdə, bununla bağlı hər iki bəstəkarın əsərlərinin araşdırılması mərhələsində dövrü mətbuatda çox maraqlı qeydlərə təsadüf edilmişdir. Bu sırada,T.Quliyevun "Sənin bircə sözün" (1964) operettasının ilk təqdimatı zamanı, bəstəkarlardan və bir sıra digər tanınmış musiqi xadimlərindən alınan müsahibələrdə "Sənin bircə sözün" "operetta – revyu və müzikl"a yaxın olması məqamı ilə vurğulanmışdır[33]. Eyni zamanda, R.Hacıyevin musiqili komediyaları da "müzikl və revyu" olaraq dövrü mətbuatda öz əksini tapmışdır[34]. Lakin bəstəkarlar bu nümunələrini müzikl kimi yox, məhz operetta kimi səciyyələndirmişlər. Bunun səbəbini keçmiş sovetlər birliyində olan ideoloji məqamlarda görmək olar. Belə ki, bu dönəmdə incəsənətin Qərb yönümlü tendensiyaları və janrlarına qarşı mənfi münasibət olduğundan bəstəkarlar əsərləri daha ənənəvi janr kimi qələmə vermişlər. Nəticədə, bu bölümdə operetta adı ilə tanınan hansısa bir əsərin əslində müziklin tipik nümunəsi olması məqamı qarşımıza çıxır.

**2.3. "İlk klassik Azərbaycan müzikli - Qara Qarayev "Çılğın Qaskoniyalı""** bölümündə əsərin ətraflı təhlili verilib. Azərbaycan teatr musiqisi tarixində klassik müzikl janrında ərsəyə gələn ilk nümunə Q.Qarayevin "Çılğın Qaskoniyalı" əsəridir. Q.Qarayev kimi dahi bir şəxsiyyətin 70-ci illərdə teatr musiqisini canlandıracaq önəmli addımlar

[33]"Ədəbiyyat və İncəsənət" qəzeti, 16 dekabr, 1967-ci il; "Молодёжь Азербайджана" qəzeti, 1 yanvar, 1968-ci il
[34]"Вышка" qəzeti, 14 may, 1992-ci il

atılmasına ehtiyac duyulduğunu hiss etməsi[35] və bunun nəticəsində, yeni janrda – müzikldа ilk nümunəni ərsəyə gətirməsi milli musiqili teatrın istiqamətini dəyişən tarixi bir hadisə oldu. Belə ki, 1978 – ci ilin 30 oktyabr tarixində, Moskvanın operetta teatrında premyarası baş tutan Azərbaycan bəstəkarının parlaq bir əsəri teatr musiqi mədəniyyəti üçün yeni bir səhifənin açılmasına səbəb oldu. Bəstəkarın Azərbaycan teatr musiqisi tarixi üçün yeni olan müzikl janrına müraciəti və əsərin orijinal üslubu onun musiqili səhnə əsərləri sırasında özünəməxsus yer tutmasına rəvac verdi.

Dissertasiyanın bu bölümündə "ilk baxışdan" əsərin musiqili komediya təəssüratı yarada biləcəyi səbəblərinə toxunularaq qeyd edilir ki, "Çılğın Qaskoniyalı"nın üç şəklinin işiqli, pozitiv, məzəli çalarlarla və opera buffa janrına yaxın cizgilərlə inkişaf etməsi yanlış fikrin yaranmasına gətirib çıxaran başlıca məqamdır. Lakin girişin quruluşu, sujet xəttinin mətnaltı dramatik inkişafı və bunların əsərin musiqi üslubunda da öz əksini tapması onun fərqli bir janr nümunəsi olmasının ilkin siqnalıdır. Xüsusən də, dramaturji inkişafın əsərin son hissələrinin "lirik" "qəmli intonasiyalar"ı və "matəm çalarları" ilə birləşməsi heç bir halda diqqətdən kənarda qala bilməz. Məhz bu məqamlar "Çılğın Qaskoniyalı"nı musiqili komediya janrı kimi baxılmasından uzaqlaşdırır.

Eyni zamanda, əsəri musiqili komediyadan uzaqlaşdıran daha bir əsaslı məqam baş qəhrəmanın obrazıdır. Məlumdur ki, Sirano de Berjerak XVII əsrdə yaşayan real, tarixi personajdır. Rostanın bu pyesi və xüsusən də, Sirano obrazı Q.Qarayevi hələ gənc yaşlarından özünə cəlb etmişdir[36]. Belə ki, Sirano – qələbələr qazanan duelçi - qəhrəman, itizəkalı və itisözlü filosof – şair, sadiq dost və zərif hisslərlə sevməyi bacaran bir aşiq - Çılğın Qaskoniyalı obrazının təcəssümüdür və bu obraz özlüyündə Q.Qayarev fenomenidir. Biz bilirik ki, Q.Qarayevin hər bir əsərinin (kiçik və ya iri həcmli) dərin fəlsəfi məzmunu və məntiqli həlli üsulları var və Siranonun dərin psixoloji obrazı onu bəstəkarın Don Kixotuna yaxınlaşdırır. Hər iki qəhrəmanın oxşar xarakterik cizgiləri yəni, daim haqsızlıqlara qarşı mübarizə aparmaları, ədalət və sülh aşiqləri olmaları, sadiqliyi, təmiz və saf duyğularla sevgi hissi yaşamaları onların bu gerçək həyatın reallıqlarından uzaq düşmələri və öz həyatlarını qurban verələri ilə nəticələnir. Beləcə, həyatın anlamı olan "dürüstlük" kredosu gerçəklikdə onların məhvinə səbəb olur. Bu baxımdan, əsər bəzən musiqili komediya kimi xarakterizə

[35] Вах: К.Караев. Научно - публицистическое наследие. Б. 1988
[36]Yenə orada

olunsa da, müəllif ilk gündən etibarən onu müzikl kimi səciyyələndirmişdir. Onun bu fikrinə[37] isə ötəri münasibət göstərmək düzgün olmazdı və bu bölümdə edilən təhlildən və əsərin üslub özəllikləri ilə bağlı əldə edilən nəticələrdən də göründüyü kimi, bu məqam tamamilə öz təsdiqini tapır. Burada "ədəbi məzmun", baş qəhrəmanın dərin psixoloji portreti, faciəvi xəttin mətnaltı dramatik inkişafı, əsərdə XVII və XX əsr musiqi üslublarının vəhdəti (neoklassisizm) kimi önəmli xüsusiyyətləri "Çılğın Qaskoniyalı"ya musiqili komediya kimi deyil, müzikl kimi baxılmasına rəvac verir.

Bu hissənin sonunda Q.Qarayev tərəfindən obraz və dramatik inkişaflı sujet xəttinin seçimində, əsərin məzmunun cərəyan etdiyi dövr ilə (XVII əsr) əsərin yarandığı dönəm musiqi üslublarının (XX əsrin 60-70-ci illəri) sintez edilməsi məqamlarında müzikl ənənələrinin izləndiyi ortaya qoyulur. Belə ki, Q.Qarayev bu əsəri ilə müzikla "lokal" qaydaları olan bir janr kimi deyil, ilk baxışdan uyğunsuz görünən üslub vasitələrin polifoniyasını ehtiva edən teatrın yeni strukturu[38] yanaşmasını göstərmişdir ki, bu da janrın özəlliklərini əhatə edən bir məqamdır. Məhz bu üslub özəllikləri "Çılğın qaskoniyalı" müziklına Azərbaycan musiqi mədəniyyətində ilk klassik nümunə kimi baxmağa rəvac verir.

**2.4. "Azərbaycan bəstəkarlarının yaradıcılığında müzikl"** adlanan son bölümdə Q.Qarayevin "Çılğın Qaskoniyalı" müziklindən sonra Azərbaycan bəstəkarlarının bu janrda təsadüf edilən nümunələri araşdırılmışdır. Belə ki, Azərbaycanda müziklin yarandığı ilk nümunədən (1973-cü ildən) sonra bəstəkarlarımız bu janra daha çox müraciət etməyə başlamışlar. Onlar sırasında, F.Qarayev və L.Vanşteyn ("Nyu – Yorka yol və ya Miss Elli ərə gedir", 1973), L.Vanşteyn ("Səhranın ağ günəşi", 1988), A.Əzimov ("Romeo və Culyetta", 1984; "Karmen", 1995; "Yay gecəsinin yuxusu", 1995), A.Yusifova (T.Quliyevin eyni adlı məcmuəsi əsasında "Cəmilənin albomu", 1993), R.Şəfəq ("Ağ div, Qara div", 1995; "Yağış göbələyinin macəraları", 2003), V.Camalzadə ("Onun ürəyi", 2011), M.Quliyev ("Leyli və Məcnun", 2011) və s. adlar var.

Lakin bu bölümdə araşdırılan və ətraflı şəkildə edilən təhlildə bəzi musiqili səhnə əsərləri müəllifləri tərəfindən müzikl kimi səciyyələndirilməsinə baxmayaraq, onların bir çoxunda janrın tələblərinə cavab verilmədiyi müəyyən edildi. Yəni, iyirmiyə yaxın müzikllərın adlarına təsadüf

---

[37]Вах:К.Караев. Научно - публицистическое наследие. Б., 1988

[38] Ю.Шерлинг. «Новое средство общения!» –// Журнал «Театр», 1975, № 8, с.66

olunduğu halda, janrın klassik tələblərinə cavab verən yalnız 13-ə yaxın nümunə aşkarlandı.

Dissertasiyanın bu hissəsində nəzərdən keçirilən nümunələrdə isə xüsusən qabarıq şəkildə önə çıxan milli koloritin bu janrda istifadə olunması konsepsiyası oldu ki, bu da təhlil edilən nümunələr sırasında İ.Gözəlova və M.Quliyevin “Leyli və Məcnun” (2011) müziklində daha parlaq öz əksini tapdı. Bu əsərdə “Leyli və Məcnun” poeması (N.Gəncəvi) müasir yozumda, orijinal rejissor həlli üsulu, müasir estrada janrları ilə (hip – hop, r&b) milli folklor nümunələrinin (muğam, meyxana) sintezi yolu ilə əks etdirilmişdir. Eyni zamanda, Q.Qarayevin neoklassisizm ənənələrini özündə təcəssüm etdirən “Çılğın Qaskoniyalı” nümunəsi ilə yanaşı, S.Fərəcovun “Tədbirə qarşı tədbir” (2004) müzikli də qeyd edilməlidir. Belə ki, bəstəkar bu müziklda rok üslubundan geniş şəkildə istifadə etmiş və eyni zamanda, klassik və estrada janrlarının (mahnı, rok, caz elementləri) sintezinə nail ola bilmişdir.

Lakin edilən təhlil nəticəsində Azərbaycan bəstəkarlarınının dünya klassiklərinin “əbədi məzmun”nuna və nağıl mövzularına əsaslanan nümunələrinin üstünlük təşkil etməsi ilə qarşılaşdıq ki, bu da, bir daha janrın üslub özəlliklərinin təyin edilməsində öz əksini tapan əsaslı məqamlardan biridir.

Ümumilikdə, dissertasiyanın bu bölümündə edilən əsərlərin təhlili Azərbaycanda 80-cı illərdən etibarən ərsəyə gələn müzikllərın üslub özəlliklərini özündə əks etdirən əsas məqamları müəyyən etməyə imkan verdi. Belə ki, bu,əsərin sujeti (bədii məzmun), musiqi üslubu və xoreoqrafiyası ilə bağlı diqqəti çəkən xüsusiyyətlərdir ki, bu da təhlil edilən Azərbaycan müzikllarının aşağıdakı şəkildə təsnifatının verilməsinərəvac verdi:

**1. Dünya klassiklərinin “ədəbi məzmun”una əsaslanan nümunələr:**

Q.Qarayev – “Çılğın Qaskoniyalı” (E.Rostan “Sirano de Berjerak”);

A.Əzimov – “Romeo və Culyetta” (U.Şekspir), “Karmen” (P.Merime), “Yay gecəsinin yuxusu” (U.Şekspir);

S.Fərəcov – “Tədbirə qarşı tədbir” (U.Şekspir);

M.Quliyev – “Leyli və Məcnun” (N.Gəncəvi);

**2. Nağıl əsaslı müzikllar:**

C.Zülfüqarov – “Damdabaca”;

R.Şəfəq – “Ağ div, Qara div”, “Yağış göbələyinin macəraları”;

L.Vanşteyn – “Qırmızı papaq”;

V.Camalzadə – “Onun ürəyi”

A.Əzimov – “Cücələr”.

**3. Tanınmış əsər və ya film əsasında yazılan müzikllar:**
F.Qarayev, L.Vanşteyn – "Nyu – Yorka yol" (eyni adlı filmi əsasında);
L.Vanşteyn – "Səhranın ağ günəşi" (eyni adlı film əsasında);
A.Yusifova – "Cəmilənin albomu" (T.Quliyevin eyni adlı məcmuəsi əsasında);
**4. Neoklassisizmə əsaslanan müzikllar:**
Q.Qarayev – "Çılğın Qaskoniyalı"
S.Fərəcov – "Tədbirə qarşı tədbir"
**5. Müasir estrada və milli üslubun sintezi əsasında yazılan müzikllar:**
A.Əzimov – "Cücələr"
V.Camalzadə – "Onun ürəyi"
M.Quliyev – "Leyli və Məcnun"
**6. Xoreoqrafik səhnələrinin xüsusiyyətlərinə görə müzikllar:**
-Pantomima quruluşlu – A.Əzimov "Romeo və Culyetta"
-Kütləvi rəqs səhnələri – Q.Qarayev "Çılğın Qaskoniyalı" S.Fərəcov "Tədbirə qarşı tədbir", A.Yusifova "Cəmilənin albomu", V.Camalzadə "Onun ürəyi"
-Rəgs idman hərəkətləri – A.Əzimov "Cücələr", V.Camalzadə "Onun ürəyi"
-Müasir rəqs elementləri – M.Quliyev "Leyli və Məcnun"

Beləliklə, tədqiqat işi zamanı təhlil edilən əsərlər əsasında qeyd edilən təsnifat həyata keçirilmişdir ki, bu da müziklin Azərbaycanda mövcud olan əsaslı nümunələrini aşkar edilməsinə şərait yaratmış oldu.

**Nəticədə** tədqiqata yekun vurulur və qeyd olunur ki, Azərbaycanın musiqi tarixində müzikl janrı Q.Qarayevin 1973-cü ildə "Çılğın Qaskoniyalı" əsəri ilə başlasa da, T.Quliyev və R.Hacıyevin operetta yaradıcılıqlarının daha erkən dövrünə aid olan nümunələrində edilən təhlil müzikl cizgilərinin mövcud olduğunu deməyə imkan verir. Nəticə etibarı ilə bu, Azərbaycan musiqi tarixində müziklin 60-cı illərdən etibarən yarandığı məsələsini ortaya qoyur. Bu məsələ ilə bağlı bütün mümkün informasiya mənbələrinin öyrənilməsi dövrü mətbuatda əsərlərin ilk premyeraları zamanı bəzi nümunələrin "operetta - revyu, operetta -müzikl"a yaxın olması qeydləri ilə bağlı rastlantılarla da qarşılaşdırmışdır ki, bu da əldə edilən nəticənin əsaslı olması faktını təsdiqləməyə imkan vermişdir.

Tədqiqat nəticəsində Azərbaycanda 80-ci illərdən bu günümüzə qədər mövcud olan, müzikl janrının üslub və özəlliklərinə tam uyğun olan bir sıra nümunələr ilk dəfə olaraq ətraflı təhlil şəklində verilmişdir. Və təhlil edilən bu

müzikllərın özünəməxsus milli özəllikləri onları ABŞ və Avropada yaranan nümunələrdən fərqləndirən başlıca məqamlardan biri olaraq göstərilə bilər.

Dissertasiyaya daxil edilən əsərlər milli kitabxanalarla yanaşı, bəstəkarların şəxsi əlyazma və arxiv nümunələrindən əldə olunan materiallar, onlarla aparılan müsahibələr əsasında tədqiq olunmuşdur. Bunun nəticəsində, hər bir bəstəkarın müzikl janrına olan yanaşması, fikirləri, bu janrda yaratdıqları əsərlərdə məzmun və musiqi dili üçün üstünlük verdikləri seçimləri müəyyənləşdirilmişdir. Və aparılan təhlil belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, müzikl janrı yarandığı dövrdən etibarən kütlənin maraq dairəsini və dövrün tələblərini daim nəzərə alan, özündə incəsənətin bir sıra istiqamətlərini cəmləşdirən səhnə janrlarından biridir. Bu baxımdan, müzikl onda əsər yaradan müəlliflərə çərçivəsizlik və rahatlıq verən bir janrdır.

Beləliklə, müziklda "əbədi məzmun" (və bu məzmuna müasir prizmadan yanaşma), musiqili dramaturji inkişaf, söz, səs, sujetə uyğun xoreoqrafiyanın və ya rəqslərin seçilməsi (və bu rəqslərin dramaturji inkişafla vəhdət şəklində olması), dekorasiya, geyim, bir sözlə, hər bir detalın bir-birini tamamlayaraq həmahəng halda olması mütləqdir. Məhz bu halda o, mükəmməl kulminasiyaya nail olur, parlaq üslub cizgiləri ilə seçilən nümunəsini ərsəyə gətirir.

Dissertasiyada təhlil edilən əsərlər Azərbaycanda müzikl janrının parlaq nümunələrinin olduğunu müəyyən etməyə imkan verdi. Bu məqam janrın Azərbaycanda da inkişafda olduğunu və nəinki teatr eyni zamanda, teatr musiqisi sahəsində perspektivli bir gələcəyə sahib olacağına ümid verir.

**Dissertasiyanın elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Teatr musiqisi müasir teatr prosesləri kontekstində. // "Musiqi dünyası" jurnalı. №3-4/41, Bakı, 2009, www.musigi-dunya.az. s. 170-172
2. 1920-70-ci illər ərəfəsində müziklin bir janr kimi inkişafına qısa baxış. / Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi konfransının materialları. Bakı, "Müəllim" nəşriyyatı, 2011. s. 421-422
3. Endryu Lloyd Uebber yaradıcılığı. / Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları. Bakı, "Müəllim" nəşriyyatı, 2012. s. 351-353
4. Зарождение жанра мюзикл в Азербайджане. /«Искусство глазами молодых». Материалы IV Международной (VIII Всероссийской) научной конференции студентов, аспирантов и молодых ученых 26-27 апреля. Красноярск, 2013, с. 293-296

5. Q.Qarayevin “Çılğın Qaskoniyalı” müziklinin üslub özəlliklərinə dair. // “Musiqi dünyası” jurnalı. №1/62, Bakı, 2015, www.musigi-dunya.az. s. 87-90

6. Azərbaycan milli musiqisinin təzahürləri musiqili komediya və operetta janrlarında. / Uluslararsı türk kültürü, sanatı ve kültürel mirası koruma sempozyumu/sanat etkinlikleri.Verona – İtaly, 2015.

7. T.Quliyev və R.Hacıyev yaradıcılığında müzikl janrı. // «Mədəniyyət.AZ» jurnalı № 9 (295) 2015, c. 66-69

8. Müzikl janrını yeni istiqamətə yönəldən britaniyalı fenomen. // “Konservatoriya” jurnalı. Azərbaycan Milli Konservatoriyası. № 4 (30), Bakı, 2015, s. 31-33

9. Sərdar Fərəcovun “Tədbirə qarşı tədbir”i. // “Qobustan” jurnalı, №2 (171),Bakı, 2016. s. 75-77

10. Первые признаки жанра мюзикл в Азербайджанских опереттах. // «Поиск», журнал – приложение Международного научно-педагогического журнала «Высшая школа Казахстана». Казахстан. № 4, 2016, с.100-103

11. “Leyli və Məcnun” mövzusu müzikl janrı kontekstində. // «Mədəniyyət.AZ» jurnalı № 12 (310) 2016, c. 80-81

**Пикя Халифа гызы Фатуллаева**

# МЮЗИКЛ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

## Резюме

Предлагаемая вниманию диссертация обращена к изучению жанра мюзикла в творчестве азербайджанских композиторов и, шире, в контексте азербайджанского музыкального исскуства.

Диссертация состоит из введения, двух глав, восьми разделов, заключения, библиографии, сайтографии и приложений.

**Во введении** обосновываются актуальность, степень изученности темы и ее научная новизна, методология, теоретическая и практическая значимость исследования, цели и задачи, а также обьект и предмет изыскания.

**I глава«История жанра мюзикла (источники, развитие, особенности стиля)»** состоит из четырёх разделов: **1.1. – «Первоначальные источники мюзикла», 1.2. – «История развития мюзикла в 1920 – 70-ые годы»; 1.3. – «История развития мюзикла в 1970 – 2000-ые годы»; 1.4. – «Особенности стиля жанра мюзикла».** Здесь наблюдаются различные сценические жанры способствовавшие зарождению и формированию мюзикла, представлены первые примеры жанра мюзикла, проанализированы особенности стиля названного жанра, а также последовательно рассматривается соответствующая история развития мюзикла в США.

**II глава «Формирование и развитие мюзикла в Азербайджане»** состоит из четырёх разделов: **2.1. – «Возникновение и развитие театра музыкальной комедии», 2.2. – «Первые истоки мюзикла в музыкальных комедиях и опереттах Т.Кулиева и Р.Гаджиева»; 2.3. – «К.Караев «Неистовый Гасконец» - первый классический мюзикл Азербайджана»; 2.4. – «Мюзикл в творчестве Азербайджанских композиторов».** В данной главе рассматриваются первые музыкальные комедии и оперетты, являющиеся первоисточниками зарождения мюзикла в Азербайджане. Кроме того, представлен подробный теоретический анализ первого в истории азербайджанской музыки мюзикла «Неистовый Гасконец» К.Караева, а также целого ряда мюзиклов Азербайджанских композиторов.

**В заключении** находят своё отражение итоги и выводы, полученные в процессе диссертационного исследования.

**Pika Khalifa Fatullaeva**

# MUSICAL IN THE WORKS OF AZERBAIJANI COMPOSERS

## Summary

The proposed dissertation is devoted to the study of the musical genre in the works of Azerbaijani composers and, more broadly, in the context of Azerbaijani musical art.

The dissertation consists of introduction, 2 chapters, 8 paragraphs, conclusion (results), bibliography, sitography and attachments.

**Introduction** justifies relevance of the topic, object of study, goals and objectives, development rate and scientific innovation, methodology, practical materials and theoretical and practical importance of the study.

**The I chapter of the dissertation – "History of the musical genre (sources, development, style features)"** – consist of four sections: **1.1. – "The original sources of the musical", 1.2.– "The development of the musical in the 1920 - 1970", 1.3.– "The development of the musical in the 1970 - 2000", 1.4. – "Stylish features of the musical".** Various scenic genres that contributed to the birth and formation of the musical are seen here, the first exampels of the musical genre are presented, the features of the style of the genre are analyzed, and the correspondinq history of the musical in the USA.

**Chapter II - "Formation and development of the musical in Azerbaijan"** consist of four sections: **2.1. – "The emergence and development of the theater of musical comedy", 2.2.– "The first sources of the musical in musical comedies and operettas by T. Guliyev and R. Hajiyev", 2.3.– "G. Garayev "Violent Gascon" - the first classical musical of Azerbaijan", 2.4. – "A musical in the works of Azerbaijani composers"**. This chapter reviews the first musical comedies and operettas that are the primary sources for the birth of a musical in Azerbaijan. There is also a comparatively-theoretical analysis of the first musical in the history of Azerbaijani music ("The Violent Gascony") and subsequent musicals in the works of Azerbaijani composers are given.

In **conclusion** the results and conclusions obtained in the process of dissertational research.

Çapa imzalanıb: 01.09.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ПИКЯ ХАЛИФА гызы ФАТУЛЛАЕВА**

# МЮЗИКЛ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

6213.01 – Музыкальное искусство

**АВТОРЕФЕРАТ**

Диссертация на соискания ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**